# Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin 2022-ci il ərzində fəaliyyətinə dair

# HESABAT

**I bölmə**

**Ölkə daxilində konfranslar, dəyirmi masalar, seminarlar, tədbirlər, təqdimatlar, görüşlər, layihələr**

| № | Tədbirlə bağlı məlumatlar | Təşkilatçılar | Tapşırığın icrası üzrə məlumatlar Tarix və məkan | Tədbirin keçirilmə forması | Qeydlər |
|---|---|---|---|---|---|
| **1.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində Qurban Səidin "Əli və Nino" romanının ləzgi, talış və udi dillərində nəşrinin, XIX-XX əsr "Talış poeziyası antologiyası"nın (talış dilində), "Xwezila - Kaş ki" hekayələr toplusu (kürd dilində) kitablarının təqdimatı keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 14 yanvar, BBMM | Təqdimat | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən hər il Azərbaycanda yaşayan azsaylı xalqların dillərində kitablar nəşr edilir və azsaylı xalqların iştirakı ilə bu kitabların ictimaiyyətə təqdimatı keçirilir. |
| **2.** | 20 Yanvar faciəsinin 32-ci ildönümünə həsr edilmiş anım tədbiri keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 21 yanvar, BBMM | Anım tədbiri | Tədbir həm Şəhidlər Xiyabanının ziyarəti, həm də daha sonra dəyirmi masa müzakirəsi formatında keçirilmişdir. |
| **3.** | Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Elm və təhsil komitəsinin, həmçinin Azərbaycan-Hindistan parlamentlərarası işçi qrupunun üzvü Şahin Seyidzadənin "Azərbaycan multikulturalizmi" fənninin xarici universitetlərdə tədrisi layihəsi çərçivəsində Hindistanın Şri-Şri Universitetində online mühazirəsi təşkil olunub | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 09 fevral, BBMM | Online mühazirə | Azərbaycan multikulturalizmi fənninin tədrisi layihəsi çərçivəsində mütəmadi olaraq Mərkəz tərəfindən Azərbaycanın tanınmış ictimai-siyasi xadimlərinin xarici universitetlərdə mühazirələri təşkil olunur. Bu çərçivədə görüşlər xarici tələbələrdə ölkəmizə maraq yaradır və dolğun məlumat almaq imkanı verir. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **4.** | “Polyakların Azərbaycanda fəaliyyəti” adlı Mərkəzin nəşrinin təqdimatı keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Polşanın Azərbaycandakı Səfirliyi | 11 fevral, BBMM | Təqdimat | Kitabın nəşrində əsas məqsəd Azərbaycanda polyak irsini işıqlandırmaqdır. Bu layihəyə Polşanın ölkəmizdəki səfirliyi böyük maraq göstərmişdir və gələcəkdə nəşrin polyak dilinə də tərcüməsi mümkün olacaqdır. Kitab tarixçi alim Prof. Nəsiman Yaqublunun araşdırmaları əsasında çap olunmuşdur. |
| **5.** | Bakı şəhəri 46 saylı orta məktəbdə yəhudi xalqı tərəfindən qeyd edilən "Tu Bi Şvat" bayramına həsr edilən tədbir keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikası Təhsil Nazirliyi, İsrailin Azərbaycandakı Səfirliyi | 12 fevral, BBMM | Bayram tədbiri | Bakı şəhəri 46 saylı orta məktəbdə yəhudi bölməsi fəaliyyət göstərir. Bu bayram çərçivəsində şagirdlərlə görüş keçirilmiş, məktəbin həyətində sülh ağacları əkilmiş və şagirdlərin Azərbaycan və ivrit dillərində şeir və mahniları dinlənilmişdir. |
| **6.** | “Xocalı soyqırımı” nın 30-cu ildönümü ilə bağlı anım tədbiri keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 25 fevral, BBMM | Anım tədbiri | Tədbirdə tarixçi alimlər, Xocalı şahidləri, Azərbaycanda yaşayan etnik icmaların və konfessiyaların rəhbərləri iştirak etmiş və çıxışlar etmişdir. |
| **7.** | “Azərbaycan multikulturalizminin elmi-fəlsəfi və ictimai-publisistik qaynaqları” kitabının təqdimatı keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 10 mart, Azərbaycan Dillər Universiteti | Təqdimat | İctimaiyyətə təqdim olunmuş nəşr Azərbaycan multikulturalizminin qaynaqları seriasının 2-ci buraxılışıdır. Daha əvvəl “Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları” ingilis və Azərbaycan dillərində nəşr olunmuşdur. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **8.** | “Mənəvi İntibah” sənədli filminin təqdimatı keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 25 mart, BBMM | Təqdimat | Filmdə dinin siyasiləşdirilməsinin fəsadlarından, insanlığın, bəşəriyyətin böhranlardan, müharibələrdən, eləcə də digər qlobal və regional kataklizmlərdən xilas yolunun mənəvi intibahdan keçməsindən, xüsusilə hazırda dünyada mövcud olan mənəvi böhrandan çıxış yolu, o cümlədən bir “yol xəritəsi” kimi Azərbaycanda formalaşmış multikultural, tolerantlıq, birgəyaşayış ənənələrindən bəhs edilir. |
| **9.** | “Terror multikulturalizmə qarşı” layihəsi çərçivəsində “Azərbaycanlıların soyqrımı-1918” mövzusunda dəyirmi masa təşkil olunub | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 31 mart, BBMM | Dəyirmi masa | Dəyirmi masada tarixçi alimlərimiz, ölkəmizdə yaşayan etnik icmaların və fərqli dini icmaların rəhbərləri ermənilər tərəfindən Azərbaycanlılara qarşı törədilmiş sistematik etnik təmizləmə və soyqrım siyasətindən bəhs etmişlər. |
| **10.** | “Şuşa kataloqu”nun təqdimatı keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Mənəvi Dəyərlərin Təbliği Fondu | 20 aprel, Milli İncəsənət Muzeyi | Təqdimat | "Şuşa ili" çərçivəsində hazırlanan kataloq arxiv sənədi kimi çox əhəmiyyətlidir. Nəşr Azərbaycan və ingilis dillərindədir. Nəşrdə Şuşa şəhərində olan tarixi-mədəni və dini abidələrimizin işğaldan öncəki və sonrakı vəziyyəti və planı, eyni zamanda tarixi məlumatları öz əksini tapmışdır. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **11.** | “Gənclər arasında zərərli dini baxışların sosial-psixoloji reabilitasiya, dini dözümlülük və multikulturalizmin təbliği” mövzusundakı seminar keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, “Sosial və Psixoloji Tədqiqatlar Mərkəzi” İctimai Birliyi, Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi | 26 aprel, BBMM | Seminar | Müasir cəmiyyətdə bəzi dini cərəyanların məqsədyönlü şəkildə özlərinə xas olan radikal, fundamentalist və antisekulyar baxışlarını təbliğ etmələri artmaqdadır. Bu cür təbliğat və təşviqatın hədəfi xüsusilə gənclərə yönəlir. Mərkəz tərəfindən bu istiqamətdə maarifləndirici tədbirlər mütəmadi olaraq təşkil olunur. Bura vətədaş cəmiyyəti institutlarının və gənclərin cəlb olunması məsələsinə xüsusi ilə diqqət göstərilir. |
| **12.** | “Heydər Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası” V Beynəlxalq elmi konfrans keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Dillər Universiteti | 28 aprel, Azərbaycan Dillər Universiteti | Beynəlxalq konfrans | Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş “Heydər Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası” V Beynəlxalq elmi konfransda Rumıniya, Əlcəzair, Qazaxıstan və digər ölkələrdən məruzəçilər iştirak edib. |
| **13.** | “Heydər Əliyev və Azərbaycan multikulturalizmi” adlı Lektoriya təşkil olunub | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, AMEA-nın Mərkəzi Elmi Kitabxanası | 4 may, AMEA-nın Mərkəzi Elmi Kitabxanası | Lektoriya | Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99 illiyinə həsr olunmuş “Heydər Əliyev və Azərbaycan multikulturalizmi” mövzusunda keçirilən lektoriyada elm adamları, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin əməkdaşları, millət vəkilləri, dini |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | icmaların nümayəndələri məruzə ilə çıxış ediblər. |
| **14.** | Vyana Yəhudi icmasının ravvini və Ştiriya əyalətinin paytaxtı Qratsın baş ravvini Şlomo Hofmeyster (Schlomo Hofmeiter) ilə görüş keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 15 may, BBMM | Görüş | Görüşdə Azərbaycan Respublikasının Avstriyada Fövqəladə və səlahiyyətli səfiri Rövşən Sadıqbəyli, Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev, Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski də iştirak edib. |
| **15.** | G20 Dinlərarası Forum Regional Hazırlıq İclasında iştirak etmiş xarici ölkələrdən olan nümayəndə heyəti ilə görüş | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 18 may, BBMM | Görüş | Görüşdə ABŞ, Danimarka, İran, Türkiyə və Pakistandan olan dinlərarası dialoq istiqamətində fəaliyyət göstərən alim və mütəxəssislər iştirak etmişdir. |
| **16.** | "Şuşa birliyimizin rəmzidir" adlı dəyirmi masa keçirib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 25 may, Şuşa | Dəyirmi masa | Tədbir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci ili Azərbaycanda "Şuşa İli" elan etməsi çərçivəsində keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının nümayəndələri ilə yanaşı ölkəmizdə yaşayan azsaylı xalqların icma rəhbərləri də iştirak etmişdir. |
| **17.** | "Sülh quruculuğunda multikulturalizmin rolu" | Bakı Beynəlxalq Multikulturalizm | 27 may, BBMM | Seminar | Gənclər ilə görüş formatında təşkil olunmuş seminar 21 may - Dialoq |

| | | | | | |
|---|---|---|---|---|---|
| | mövzusunda seminar keçirilib | Mərkəzi, “Böyük Qayıdış” Gənclər Təşkilatı | | | və İnkişaf Naminə Dünya Mədəni Müxtəliflik Gününə həsr olunub. Seminarı Mərkəzin əməkdaşı Bilurə Aslanqızı aparmış və gəncləri maraqlandıran sualları cavablandırmışdır. |
| **18.** | “Qarabağın və Şərqi Zəngəzurun alban abidələri” kitabının təqdimat mərasimi keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Dövlət İqtisad Universiteti | 31 may, BBMM | Təqdimat | UNEC-də keçirilmiş təqdimat mərasimində ölkəmizdə mövcud olan bütün dini icma rəhbərləri yanaşı, millət vəkilləri, tarixçi alimlər də iştirak etmişdir. |
| **19.** | Kanada nümayəndə heyəti ilə görüş keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Diasporla İş üzrə Dövlət Komitəsi | 6 iyun, BBMM | Görüş | Kanada Birləşmiş İcmalarının Görüşdə Mətbuat Məşvərət Şurasının rəhbəri Toni Ruprext, jurnalist İnqa Söney-Kelner, Türk Federasiyasının xarici əlaqələr üzrə konsul əlaqələndiricisi İsmail Vataner, eləcə də Kanadada fəaliyyət göstərən "Vətən" Azərbaycan İncəsənət və Mədəniyyət Mərkəzinin rəhbəri Lalin Həsənova iştirak edib |
| **20.** | Çilinin Azərbaycandakı səfirliyinin müvəqqəti işlər vəkili Fidel Koloma ilə görüş keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 14 iyun, BBMM | Görüş | Görüş zamanı Azərbaycan multikulturalizm modelinin Çilidə də təbliği və tədrisi layihəsi müzakirə olunub. |
| **21.** | Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində | Əlaqələndirmə Qərargahının | 20 iyun, Zəngilan, | İşçı qrupunun iclası | İşçı qrupu Cəbrayıl, Zəngilan rayonlarında və Şuşanın Daşaltı |

| | | | | | |
|---|---|---|---|---|---|
| | məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin Elm, təhsil və mədəniyyət məsələləri üzrə işçi qrupunun üzvləri ilə birgə Zəngilan, Cəbrayıl və Şuşa şəhərlərinə səfər olunmuşdur | İdarələrarası Mərkəzinin Elm, təhsil və mədəniyyət məsələləri üzrə işçi qrupu | Cəbrayıl, Şuşa | | kəndində yerləşən mədəni, tarixi və dini abidələrə baxış keçirmək məqsədilə bölgəyə səfər edib. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov səfərdə iştirak edib. Daha sonra Zəngilan rayonunun Ağalı kəndində İşçi Qrupun növbəti iclası keçirilib. |
| **22.** | Avropa Ravvinləri Konfransının icraçı direktoru Qadi Qroniçlə görüş keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 19 iyul, BBMM | Görüş | Görüşdə Dağ Yəhudiləri Dini İcmasının sədri və Gürcü Yəhudiləri Dini İcmasının sədri də iştirak etmişdir. Görüşdə Avropa Yəhudi İcmaları ilə gələcək əməkdaşlıq məsələləri müzakirə olunmuşdur. |
| **23.** | Almaniyanın müxtəlif universitetlərindən gəlmiş və yay məktəbi layihəsi çərçivəsində ölkəmizdə olan gənclərlə görüş keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, | 13 sentyabr, BBMM | Görüş | Azərbaycan Dillər Universiteti və alman universitetlərinin birgə təşkilatçılığı ilə keçirilən yay məktəbi çərçivəsində baş tutan görüşdə BBMM-in icraçı direktoru Rəvan Həsənov ölkəmizdə olan multikulturalizm ənənələri, mədəniyyətlərarası və dinlərarası dialoq təşəbbüsləri haqqında geniş məlumat vermişdir. |
| **24.** | Belçikanın Gent Univerisitetinin professoru İohan Vandevalli ilə | Bakı Beynəlxalq Multikulturalizm | 16 sentyabr, BBMM | Görüş | Görüşdə Azərbaycan Multikulturalizminin həmin |

| | | | | | |
|---|---|---|---|---|---|
| | görüş keçirilib | Mərkəzi | | | universitetdə tədrisi, Azərbaycan dili və mədəniyyətinin təbliği məsələləri müzakirə olunub. Söhbət zamanı bu sahədə əməkdaşlığın önəmi xüsusi vurğulanıb və razılıq əldə edilib. |
| **25.** | İraq Respublikası Strateji Araşdırmalar Mərkəzinin icraçı direktoru Muataz Muhi Abdulhamed Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində görüş keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 29 sentyabr, BBMM | Görüş | Görüş zamanı iki qurum arasında qarşılıqlı əməkdaşlıq və məsələsi müzakirə olunub. |
| **26.** | “Azərbaycan multikulturalizm modeli” haqda mühazirə təşkil olunub | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, ADA Universiteti, UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiya, İnkişaf və Diplomatiya İnstitutu | 4 oktyabr, ADA Universiteti | Mühazirə | Mühazirə Afrikanın 14 ölkəsinin UNESCO üzrə Milli Komissiyalarının baş katibləri və nümayəndələri üçün nəzərdə tutulmuşdur. Mərkəzin Təhsil şöbəsinin müdiri İrina Kunina mühazirəni təşkil etmiş və Azərbaycan multikulturalizm modeli haqqında geniş məlumat vermişdir. |
| **27.** | Azərbaycanda təhsil alan xarici tələbələrə “Azərbaycan multikulturalizmi” mövzusunda seminar təşkil olunub | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, ADA Universiteti | 25 oktyabr, ADA Universiteti | Seminar | ADA-nın Topçubaşov adına Təqaüdçülər Klubunun təşkilatçılığı ilə keçirilən seminarda ölkəmizin müxtəlif ali məktəblərində təhsil alan əcnəbi tələbələr iştirak ediblər. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Təhsil şöbəsinin müdiri İrina |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | Kunina Azərbaycandakı multikultural və tolerant mühit, mövcud milli-mədəni müxtəliflik, etnik-dini dözümlülük və çoxkonfessiyalılıq, eləcə də, Azərbaycan multikulturalizm modelinin əsas xüsusiyyətləri, iş mexanizmi və prinsipləri haqda danışıb. |
| **28.** | "Çili: xalq və mənzərə" adlı fotosərginin açılış mərasimi keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, ADA Universiteti, Çili Respublikasının Səfirliyi | 28 oktyabr, ADA Universiteti | Sərgi | Sərgi Çili Səfirliyinin müraciəti əsasında keçirilmişdir.Fotosərgidə Çilinin zəngin təbiəti, xalqın yaşam tərzi və maraqlı məkanları nümayiş edilib. Tədbirdə ölkəmizdə fəaliyyət göstərən diplomatik korpus nümayəndələri, dini və milli icma rəhbərləri də iştirak edib. |
| **29.** | "Biz birlikdə güclüyük" mövzusunda konfrans keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 5 noyabr, BBMM | Konfrans | Zəfər Gününün ikinci ildönümünə həsr edilmiş "Biz birlikdə güclüyük" mövzusunda konfransda Azərbaycanda yaşayan azsaylı xalqların icma rəhbərləri və dini icmaların rəhbərləri, şəhid ailələri iştirak etmiş və "Vətən müharibəsi"ndə qələbəmizdə ölkəmizdə olan milli birliyin və həmrəyliyin rolu istiqamətində çıxışlar olmuşdur. Torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi anılmış və Mərkəz tərəfindən hazırlanmış "Biz |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | birlikdə güclüyük" adlı sənədli film də təqdim olunmuşdur. |
| **30.** | "Multikulturalizm və Qlobal dünyada konfessiyalararası töhfə" mövzusunda mühazirə təşkil olunub | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, ADA Universiteti | 18 noyabr, ADA Universiteti | Mühazirə | G20 Dinlərarası Forumunun təsisçisi və prezidenti, Hüquq professoru və Briqam Young Universitetinin Beynəlxalq Hüquq və Din Araşdırmaları Mərkəzinin təsisçi direktoru V. Kol Durhamın mühazirəsi tələbələrdə və digər iştirakçılarda xüsusi maraq yaradıb. Mühazirə zamanı Azərbaycan multikulturalizm siyasətinin təhlili və qiymətləndirilməsi əhəmiyyətli idi. |
| **31.** | ABŞ-ın Yuta ştatından olan nümayəndə heyəti ilə görüş keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 18 noyabr, BBMM | Görüş | İcraçı direktor Rəvan Həsənov qonaqlara Mərkəzin fəaliyyəti, həyata keçirdiyi layihələr barədə ətraflı məlumat verib. Sonra qarşılıqlı əməkdaşlıq əlaqələrinin gücləndirilməsi üçün müzakirələr aparılıb. Görüşün sonunda qonaqlara Mərkəzin ingilis dilində nəşr etdiyi kitablar hədiyyə edilib. Qonaqlarla eyni zamanda Mərkəzin təşkilatçılığı ilə Milli Məclis, Qafqaz Müsəlmanları İdarəsi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Socar, Kobia, Rus Provaslav Kilsəsi, Heydər Məscidi və Dağ Yəhudiləri Dini İcmasında görüşlər keçirilmişdir. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **32.** | Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyevanın ölkəmizdə yaşayan və fəaliyyət göstərən etnik icmaların rəhbərləri ilə görüşü keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 2 dekabr, BBMM | Görüş | Görüşdə Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının nümayəndələri ilə yanaşı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin əməkdaşları, Bakı Dağ Yəhudiləri Dini İcmasının, Samur Ləzgi Mədəniyyət Mərkəzinin, Avropa yəhudiləri dini icmasının, Talış icmasının, Azərbaycan-Avar İctimai Birliyinin, Alban-udi xristian dini icmasının, Azəri Tat Mədəniyyət Mərkəzinin, Azərbaycanda yaşayan axıska türklərinin “Vətən” İctimai Birliyinin, Gürcü yəhudiləri dini icmasının, Kürd icmasının, “Buduq” Xeyriyyə Cəmiyyətinin, Azərbaycan Ukrayna Konqresi İctimai Birliyinin, Azərbaycan-Bolqarıstan Dostluğunun İnkişafına Yardım İctimai Birliyinin rəhbərləri, eləcə də talış dilində nəşr olunan “Dodo” və Azərbaycan, rus, ləzgi dillərində nəşr olunan “Samur” qəzetinin baş redaktorları da iştirak ediblər. |
| **33.** | Ulu Öndər Heydər Əliyevə həsr olunmuş anım tədbiri keçirilmişdir | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 12 dekabr, BBMM | Anım tədbiri | Anım tədbiri çərçivəsində ilk öncə Mərkəzin əməkdaşları Fəxri Xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət etmişdir. Daha sonra Mərkəzdə |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | Azərbaycan multikulturalizminin siyasi banisinə həsr olunmuş dəyirmi masa təşkil olunmuşdur. |
| **34.** | “Həqiqətin onomastikası” adlı kitabın təqdimatı keçirilmişdir | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Dillər Universiteti | 15 dekabr, Azərbaycan Dillər Universiteti | Təqdimat | Təqdimat tədbirində kitabın müəllifləri, həmtəşkilatçı qurumlar, alimlər, millət vəkilləri və müxtəlif qurumların nümayəndələri iştirak etmişdir. |
| **35.** | Azərbaycanda yaşayan azsaylı xalqların mədəniyyətlərini təqdim etmək məqsədi ilə Mərkəz tərəfindən sənədli filmlər hazırlanmışdır | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | İl ərzində | Sənədli filmlər | Cari ildə 10 sənədli filmin ictimaiyyətə təqdimatı nəzərdə tutulmuşdu. “Azərbaycanda yaşayan ləzgilər”, “Qafqaz Albaniyası irsi”, “Azərbaycanda yaşayan tatlar”, “Azərbaycanda yaşayan rutullar”, “Azərbaycanda alman izləri”, “Azərbaycanın xristianlıq irsi”, “Azərbaycanın islam irsi”, “Şuşa Azərbaycanın mədniyyət paytaxtı” adlı 8 sənədli film ingilis dilində alt yazı ilə təqdim olunmuş və sosial mediada və saytımızda yayılmışdır. 2 film isə qısa zamanda təqdim olunacaqdır. |
| **36.** | Türkiyənin KADEM (Qadın və Demokratiya) təşkilatı ilə görüş təşkil olunmuşdur | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 16 dekabr, BBMM | Görüş | Görüş zamanı Azərbaycanda gender bərabərliyi məsələsi, qadınların ictimai həyatda təmsilçiliyi, bərabərhüquqluluq mövzusu ələ alınmışdır. Görüş qarşı tərəfin istəyi əsasında keçirilmişdir. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **37.** | Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə görüş təşkil olunmuşdur. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi | 20 dekabr, Nizami Gəncəvi Beyəlxalq Mərkəzi | Görüş | Görüş zamanı xarici ölkələrdə birgə tədbirlərin keçirilməsi, Azərbaycanın təbliğində qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə olunmuşdur. |

## II bölmə

## Beynəlxalq konfrans, dəyirmi masa, seminar və tədbirlər

| № | Tədbirlə bağlı məlumatlar | Təşkilatçılar | Tapşırığın icrası üzrə məlumatlar Tarix və məkan | Tədbirin keçirilmə forması | Qeydlər |
|---|---|---|---|---|---|
| **1.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Ukrayna nümayəndəliyi və Dnepropetrovsk Vilayəti Azərbaycanlıları Konqresinin təşkilatçılığı ilə “Azərbaycan dünya multikulturalizm mərkəzlərindən biridir: Azərbaycanda etnik və dini müxtəliflik” mövzusunda dəyirmi masa keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 27 yanvar, Ukrayna (Kiyev) | Dəyirmi masa | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin xarici ölkələrdəki nümayəndəlikləri Azərbaycan multikulturalizm modelinin təbliği istiqamətində hər il müxtəlif konfrans, dəyirmi masa və seminarlar təşkil edir. |
| **2.** | “Müharibə cinayətləri mədəni irsə qarşı: Qarabağ münaqişəsinin tarixi konteksində” mövzusunda XI Beynəlxalq Multikulturalizm Qış Məktəbi təşkil edilmişdir | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, | 18-25 fevral, Azərbaycan (Bakı, Ağdam, Şuşa) | Beynəlxalq Qış Məktəbi | XI Beynəlxalq Multikulturalizm Qış Məktəbində 17 ölkədən xarici tələbələr və eləcə də ölkəmizin universitetlərində təhsil alan Azərbaycanlı tələbələr iştirak |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | etmişdir. Qış məktəbi iştirakçıları Bakı şəhəri ilə yanaşı, Ağdam və Şuşa şəhərlərində də olmuş və erməni vandalizmini öz gözləri ilə görmək imkanı əldə etmişlər. Tələbər Qış Məktəbi çərçivəsində ölkəmizin tanınmış ictimai-siyasi və din xadimləri ilə görüşüblər. |
| **3.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsrail filialı Xocalı faciəsinin 30-cu ildönümünə həsr olunan tədbir keçirib. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 26 fevral, İsrail | Anım tədbiri | İsrailin siyasi partiyalarının nümayəndələri, Holon şəhəri merinin birinci müavini Mixail Sutovski, Ariel Universitetinin professoru Kirill Feferman, israilli siyasi texnoloq Roman Qureviç, İsraildə yaşayan azərbaycanlı rejissor və "Ağrı" romanının həmmüəllifi Əmir Qut, israilli riyaziyyatçı, Keu pedaqoji institutunun professoru Mark Appelbaum, İsrail KİV-lərinin təmsilçiləri, Türkiyə Respublikasının İsraildə diplomatik korpusu tam heyətdə, həmçinin İsrailin vaxtilə Azərbaycanda yaşamış çoxsaylı icması iştirak edib. |
| **4.** | "Prioritet Qlobal Məsələlər üzrə Multikultural Perspektivlər" adlı beynəlxalq konfrans keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, G20 Dinlərarası Forum Assosiasiyası, | 13 may, Azərbaycan (Bakı) | Beynəlxalq konfrans | Konfransda "Sülhquruculuq, sülhməramlılıq və sabitlik üzrə dinin rolu", "Tolerantlıq və multikulturalizm: Regional və dini perspektivlər" , "COVID-lə |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | Stirlinq Fondu, Qafqaz Müsəlmanları İdarəsi | | | mübarizədə dinin roluna dair regional perspektivlər” adlı panel müzakirələr təşkil olunub. Konfransda Azərbaycanlı mütəxəssislərlə yanaşı, ABŞ, Türkiyə, Danimarka, İran, Pakistan, Yunanıstan kimi ölkələrdən tanınmış elm adamları və din xadimləri iştirak etmişdir. |
| **5.** | “Sülh naminə dinlərarası və mədəniyyətlərarası dialoqun, anlaşmanın və əməkdaşlığın təşviqi” mövzusunda beynəlxalq konfrans | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Nizami Gəncəvi Fondu, Qafqaz Müsəlmanları İdarəsi, Azərbaycan Respublikasının Avstriyadakı Səfirliyi | 23 iyun, Avstriya (Vyana) | Beynəlxalq konfrans | Vyananın Hofburq sarayında keçirilən konfransda hökumətlərin, beynəlxalq təşkilatların, qeyri-hökumət təşkilatlarının təmsilçiləri, dünyanın müxtəlif dini konfessiya rəhbərləri, dövlət, elm və mədəniyyət xadimləri, diplomatik korpusun üzvləri iştirak ediblər. Konfrans çərçivəsində, həmçinin “Azərbaycanın multikultural kimliyində dini irs” mövzusunda sərgi təşkil olunub. |
| **6.** | “Multikulturalizm siyasəti qlobal və regional sülhün açarı kimi” adlı XII Beynəlxalq Multikulturalizm Yay Məktəbi keçirilmişdir | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 24-31 iyul, Azərbaycan (Bakı, Şəki, Qəbələ, Qax) | Beynəlxalq Yay Məktəbi | 2022-ci ilin yaz semestrində “Azərbaycan multikulturalizmi” və “Multikulturalizmə giriş” fənlərinin tədris olunduğu xarici və yerli universitetlərdə təhsil alan tələbələrlə Azərbaycanlı tələbələrin birgə iştirakı ilə təşkil olunmuşdur. Yay məktəbi çərçivəsində tələbələr regionlarda və Bakı şəhərində dini icmaların rəhbərləri, ictimai-siyasi |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | xadimlərlə görüşmüş, Azərbaycan multikulturalizm modeli ilə bağlı mühazirələr dinləmiş və mədəni irsmizə aid abidələrlə tanış olmuşlar. |
| **7.** | ATƏT-in Milli azlıqlar üzrə Ali Komissarı və Sloveniya Xarici İşlər Nazirliyinin birgə təşkilatçılığı ilə Müxtəlif cəmiyyətlərin inteqrasiyası üzrə Lyublyana Qaydalarının (Lyublyana Qaydaları) 10 illiyi münasibəti ilə beynəlxalq konfrans keçirilib | ATƏT-in Milli azlıqlar üzrə Ali Komissarı, Sloveniya Xarici İşlər Nazirliyi | 6 sentyabr, Sloveniya | Beynəlxalq konfrans | Konfransda Lyublyana Qaydalarının müzakirəsi, onların ATƏT regionunda milli azlıqların inteqrasiyası sahəsində meydana çıxan çağırışların cavablandırılması istiqamətində tətbiqi və məsələ ilə bağlı müsbət təcrübə mübadiləsi aparılıb. Həmçinin, konfransda Lyublyana Qaydaları barədə maariflәndirmə səviyyəsinin artırılması və sözügedən qaydaların daha geniş implementasiyasına dəstək yollarının müəyyən edilməsi ilə bağlı müzakirələr keçirilib. Tədbirdə iştirakçı dövlətlərin yüksək səviyyəli rəsmiləri, sahə üzrə ekspertlər, beynəlxalq təşkilatların və elmi dairələrin nümayəndələri iştirak edib. Qeyd edək ki, Azərbaycanı beynəlxalq konfransda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi təmsil edib. |
| **8.** | Yeni Mərkəzi Asiya üçün | Qazaxıstan | 13 sentyabr, | Beynəlxalq | Tədbirdə Mərkəzi Asiya |

| | | | | | |
|---|---|---|---|---|---|
| | perspektivlər: Sabit və demokratik cəmiyyətin formalaşdırılmasında dinin rolu» mövzusunda beynəlxalq konfrans keçirilib | Respublikası İnformasiya və Sosial İnkişaf Nazirliyi nəzdində Dini İşlər üzrə Komitənin, Qazaxıstanın Kaspi Universitetinin nəzdindəki İctimai Hüquq üzrə Elmi-Tədqiqat Universitetinin, ABŞ-nin Briqham Yanq Universitetinin Hüquq və Din Məsələləri Araşdırma Mərkəzinin, Qazaxıstanın Dini Birliklər Assosiasiyasının və ABŞ-nin «LYN Community» qeyri-hökumət təşkilatı, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | Qazaxıstan (Astana) | konfrans | dövlətlərindən, ABŞ, Böyük Britaniya, Avstriya, Avstraliya, Azərbaycan və Pakistandan olan nümayəndələr iştirak edib. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin əməkdaşı Araz Qurbanov konfransda «Din və siyasət. Cəmiyyətdə ictimai-siyasi sabitliyin pozulmasında xaricdən nüfuz etdirilən dini radikalizm meyllərinin rolu» mövzusunda məruzə ilə çıxış edib. |
| **9.** | Milli və ya etnik, dini və linqvistik azlıqlara məxsus şəxslərin hüquqları üzrə Bəyannamənin 30 illiyinə həsr edilmiş xüsusi sessiya keçirilmişdir | BMT | 21 sentyabr, ABŞ (Nyu York) | Xüsusi sessiya | BMT Baş Assambleyasının 77-ci sessiyası çərçivəsində baş tutan xüsusi sessiyada BBMM-in icraçı direktoru Rəvan Həsənov məruzə ilə çıxış etmiş və Azərbaycanda multikulturalizm siyasəti, azsaylı xalqların hüquqlarının qorunması |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | məsələsi ilə bağlı məlumat vermişdir. Xüsusi sessiyada BMT-yə üzv olan və Bəyannaməni təsdiq edən bütün ölkələr iştirak etmişdir. |
| **10.** | “Dinlərin sülhyaratma prosesində rolu” mövzusunda beynəlxalq simpozium keçirilib | Briqam Younq Universiteti, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 2-4 oktyabr, ABŞ (Salt Leyk Siti) | Elmi Simpozium | Simpoziumda 40-dan çox ölkənin rəsmi şəxsləri, alimləri, ekspert və din xadimləri iştirak edir. Oktyabrın 3-də Simpozium çərçivəsində “Azərbaycan və Ukrayna” adlı xüsusi panel təşkil olunub. Paneldə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov məruzə ilə çıxış edib. |
| **11.** | ATƏT-in Polşa sədrliyinin təşkilatçılığı ilə İnsan ölçüsü üzrə konfrans keçirilib | ATƏT | 3 oktyabr, Polşa (Varşava) | Plenar sessiya | Tolerantlıq, milli azlıqlara mənsub şəxslərin hüquqları, başqa dövlətlərin vətəndaşları ilə rəftar və miqrantların insan hüquqları mövzusuna həsr edilən V plenar sessiyasında Azərbaycanı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi təmsil edib. Mərkəzin müşaviri Aytən Qəhrəman məruzə ilə çıxış edib. |
| **12.** | Salt Lake City şəhərinin meri xanım Erin Mendenhall və Yuta ştatının senatının sədri cənab Stüart Adams ilə görüş keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Stirlinq Fondu | 2-4 oktyabr, ABŞ (Salt Leyk Siti) | Görüş | ABŞ səfəri çərçivəsində Solt Leyk şəhərinin meri xanım Erin Mendenhall və Yuta Ştatının Senatının sədri Stüart Adams ilə görüşdə icraçı direktor Rəvan |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | Həsənov Azərbaycanın multikulturalizm siyasəti, Azərbaycan Prezidenti İlham Əliyevin beynəlxalq təşkilatlarda geniş maraq doğuran qlobal təşəbbüsləri haqqında ətraflı məlumat verib. |
| **13.** | “Qlobal sülh və təhlükəsizlik naminə dinlərarası harmoniya” mövzusunda beynəlxalq konfrans keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, ABŞ-ın Briqam Yanq Universitetinin tabeliyindəki Hüquq və Dini Araşdırmalar üzrə Beynəlxalq Mərkəzi, Amerika Katolik Universitetinin Kolumbus Hüquq Məktəbi, Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 27 oktyabr, ABŞ (Vaşinqton) | Beynəlxalq Konfrans | Tədbirdə beyin mərkəzlərinin, müxtəlif dini qurumlar, fondların, eləcə də diplomatik korpusun nümayəndələri iştirak ediblər. Natiqlər “Davamlı İnkişaf və Sülh üçün Dinlərarası Harmoniya: Dini baxımdan çoxluq və azlıq anlayışı” və “Multikultural və dini təhlükəsizliyin qorunmasında dinlərarası dialoqun rolu” mövzularında təşkil olunmuş panel müzakirələrdə öz fikirlərini bildiriblər. |
| **14.** | G20 Sammiti çərçivəsində R20 ( Dinlərarası Dialoq) Sammiti keçirilib | İndoneziya hökuməti, G20 Dinlərarası Dialoq Forumu Assosasiyası | 2-4 noyabr, İndoneziya (Bali) | Beynəlxalq Sammit | İndoneziya hökumətinin G20 Forumunun əsas rəsmi tədbiri kimi tanıdığı Balidə keçiriləcək R20 sammiti dünyadakı müxtəlif dinlərin liderlər, alimlər, ictimai-siyasi xadimlər iştirak etmişdir. Tədbirdə Azərbaycan nümyəndə heyətini Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | Paşazadə və BBMM-in icraçı direktoru Rəvan Həsənov təmsil etmişdir. Sammitin açılış mərasiminin ardından həmtəşkilatçı qurumların təşəbbüsü ilə Azərbaycan nümayəndə heyəti İndoneziyanın "Nəhdətül-Üləma" müsəlman dini mərkəzi idarə heyətinin baş sədri Yəhya Colil Staquf və Səudiyyə Ərəbistanı Krallığının "İslam Aləmi Liqası"nın baş katibi Şeyx Məhəmməd Əbdülkərim Əl-İsa ilə ikitərəfli görüşlər keçirib. Bununla yanaşı, QMİ sədri və BBMM icraçı direktoru ABŞ-da mərkəzləşən "İsa Məsih və Sonuncu Gün Müqəddəsləri kilsəsi"nin "On İkilər Kvorumu"nun üzvü Harri Stivenson, Misirin Baş müftisi Şövqi Əllam, Yaponiyanın "Şinto" Assosiasiyasının sədri, rahib Yoşinobu Miyake, Ümumdünya Yevangelist Alyansının Baş katibi, yepiskop Tomas Şirmaxer və sammitin digər iştirakçıları ilə görüşlər keçiriblər. |
| **15.** | Bolqarıstanda "Zəfər Bayramı" ilə əlaqədar seminar təşkil olunub | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Müqəddəs Kliment Oxridski adına Sofiya | 9 noyabr, Bolqarıstan, (Sofiya) | Seminar | Tədbirdə Sofiya Universitetinin və digər universitetlərin tələbələri və qonaqlar iştirak ediblər. İştirakçılara Bakı Beynəlxalq Multikulturalizm |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | Universiteti | | | Mərkəzi tərəfindən hazırlanmış Vətən müharibəsində nümayiş olunan milli birliyə və Azərbaycanda yaşayan milli azlıqların fəaliyyətinə həsr edilmiş "Biz birlikdə güclüyük" sənədli filmi nümayiş olunub. |
| **16.** | Rumıniyanın Aleksandr İohan Kuzi adına Yassı Universitetində Bakı Beynəlxalq  Multikulturalizm Mərkəzinin yeni nümayəndəliyinin açılışı olub | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 10 noyabr, Rumıniya (Yassı) | Dəyirmi masa | Açılış mərasimində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri akademik Kamal Abdulla, ölkəmizin Rumıniyadakı səfiri Hüseyn Nəcəfov, Rumıniya Parlamentinin Azərbaycan-Rumıniya dostluq qrupunun sədri Daniel Kristian İvanitse, Yassı Universitetinin rektoru Tudorel Toader, universitetin prorektorları və professor-müəllim heyəti iştirak edib. |
| **17.** | “Tolerantlıq sülh və əməkdaşlığa aparan yol kimi” mövzusunda beynəlxalq konfrans keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Qafqaz Müsəlmanları İdarəsi, Stirlinq Fondu | 16 noyabr, Azərbaycan (Bakı) | Beynəlxalq Konfrans | Beynəlxalq Tolerantlıq Gününə həsr olunan konfransda “ABŞ-Azərbaycan əməkdaşlığının yeni mərhələsi: multikulturalizm birləşdirici körpü kimi”, “Tolerantlıq və Multikulturalizm: Dini Perspektivlər” mövzusunda panel iclaslar keçirilib. |
| **18.** | “Təhlükəsiz dünya naminə dinlər | Bakı Beynəlxalq | 5 dekabr, | Beynəlxalq | Konfrans çərçivəsində keçirilən |

| | | | | | |
|---|---|---|---|---|---|
| | və mədəniyyətlərarası dialoqun təşviqi" mövzusunda konfrans keçirilib | Multikulturalizm Mərkəzi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, "New Direction" Avropa islahatlar Fondu, Avropa Təhlükəsizliyi və Dini Azadlıq İnstitutu | Belçika Krallığı (Brüssel) | Konfrans | "Bugünkü dünyada dinin rolu", "Dinlərarası harmoniya davamlı inkişafın mühüm elementi kimi" və "Dinlərarası dialoq sülhə necə töhfə verə bilər" mövzularında panel iclaslar təşkil olunub. Tədbirdə Belçika ilə yanaşı avropanın müxtəlif ölkələrindən tanınmış ekpertlər və beyin mərkəzlərinin rəhbərləri, diplomatik korpusların nümayəndələri iştirak etmişdir. Konfrans çərçivəsində Azərbaycan multikulturalizminə həsr olunmuş fotosərgi və kitab sərgisi də təşkil olunmuşdur. |
| **19.** | "İcmalar və dinlərarası dialoq və qarşılıqlı hörməti təşviq etmək üçün təşəbbüslər və təcrübə mübadiləsi" mövzusunda konfrans kecirilib | Avropa Şurası | 6 dekabr, Fransa (Strazburq) | Beynəlxalq Konfrans | Avropa Şurasında Anti-semitizm, İslamafobiya və dini dözümsüzlüyün digər formaları və nifrət zəminində baş verən cinayətlər üzrə Xüsusi Nümayəndənin təşəbbüsü ilə keçirilən konfransda Azərbaycandan Bakı Byenəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov iştirak etmiş Azərbaycanda mövcud olan multikulturalizm siyasəti, din və dövlət münasibətləri və eləcə də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin fəaliyyəti və həyata keçirdiyi layihələr barədə ətraflı məlumat vermişdir. Tədbirdə |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | Almaniya, Fransa, Finlandiya, Portuqaliya, Birləşmiş Krallıq, İtaliya, Niderland və Macarıstan kimi müxtəlif ölkələrdən olan ekspertlər və beynəlxalq təşkilatların nümayəndələri də iştirak etmişdir. |

**III bölmə**

**“Azərbaycan multikulturalizmi” və “Multikulturalizmə giriş” fənnlərinin tədrisi layihəsi**

***2022-ci ildə tədrisin təşkil edildiyi xarici universitetlər***

| № | Universitetin adı | Ölkə | Tarix | Tədris aparan şəxs |
|---|---|---|---|---|
| 1. | Gadjah Mada Universiteti | İndoneziya | Fevral- Aprel, 2022-ci il | Prof. Həbib Zərbaliyev |
| 2. | Ural Federal Universiteti | Rusiya | Fevral – İyun, 2022-ci il | Prof. Aleksandr Nesterov |
| 3. | Vrotslav Universiteti | Polşa | Mart – İyun, 2022-ci il | Dr. İlahə Kərimova |
| 4. | Taras Şevçenko adına Kiyev Milli Universiteti | Ukrayna | Fevral – Aprel, 2022-ci il | Marina Qoncharuk |
| 5. | Şri Şri Universiteti | Hindistan | Fevral – Aprel, 2022-ci il | Dr. Kənan Məmmədov |
| 6 | Pekin Xarici dillər Universiteti | Çin | Fevral- Mart, 2022-ci il | Aqşın Əliyev |
| 7. | Hokkaydo Universiteti | Yaponiya | Oktyabr- Dekabr, 2022-ci il | Dr.Əlibey Məmmədov |

| | | | | |
|---|---|---|---|---|
| **8.** | Erciyes Universiteti | Türkiyə | Oktyabr – Dekabr, 2022-ci il | Prof. Qafar Mediyev |
| **9.** | K.Oxridski adına Sofiya Universiteti | Bolqarıstan | Oktyabr – Dekabr, 2022-ci il | Sofiya Şiqayeva |
| **10.** | Aleksandru İoan Kuza Universiteti | Rumıniya | Oktyabr – Dekabr, 2022-ci il | Prof. Ludmila Bejenaru |
| **11.** | Paraiba Federal Universiteti | Braziliya | 12 Dekabr -16 Dekabr, 2022 | Dos. İrina Kunina |

**Qeyd: 1.** Azərbaycan Respublikasının Təhsil nazirinin 19.08.2019-cu il tarixli, F-148 nömrəli əmrinə əsasən ölkədaxili bütün ali təhsil məktəblərində "Multikulturalizmə giriş" fənni bakalavr pilləsi üçün əsas fənn olaraq tədris proqramına daxil edilmişdir. Daha sonra isə humanitar fənnlər blokunda əsas fənn olaraq qaldı, ancaq texniki fənnlər blokunda seçmə fənn olaraq təklif olunmaqdadır. 2022-ci ilin sonunadək "Azərbaycan multikulturalizmi" fənni dünyanın 24 və Azərbaycanın 44 nüfuzlu ali məktəbində tədris olunub.

**2.** Fənnin tədrisində keyfiyyəti artırmaq məqsədi ilə cari ilin aprel və oktyabr aylarında ali məktəb müəllimləri üçün treninqlər Mərkəz tərəfndən təşkil edilmişdir. Təşkil olunmuş treninqlərdə ölkəmizin 25 universitetindən olan müəllimlər iştirak etmiş və müvafiq sertifikatlar əldə etmişdir.

**3.** Tələbələrin bilik və bacarıqlarının səviyyəsinin müəyyənləşdirilməsi, eyni zamanda, onların bu fənnin tədrisi ilə bağlı sual, təklif və iradlarının öyrənilməsi məqsədilə aprel ayının 4-dən 18-dək olan müddətdə Azərbaycanda ali məktəblərin bakalavr səviyyəsində tədris edilən "Multikulturalizmə giriş" fənninin monitorinqi həyata keçirilmişdir. Tədris şöbəsinin təkilatçılığı ilə monitorinqlər aşağıda adları qeyd olunan universitetlərdə həyata keçirilib:

1.Azərbaycan Tibb Universiteti
2.Azərbaycan Dövlət Pedaqoji Universiteti
3. Azərbaycan Texniki Universiteti
4.Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
5.Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
6. Azərbaycan Dövlət Neft və Sənaye Universiteti.

## IV bölmə

## BBMM tərəfindən 2022-ci ildə hazırlanan və çap edilən nəşrlər

| № | Nəşrin adı | Tarix | Nəşrin dili | Qeydlər |
|---|---|---|---|---|
| 1. | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin “International Journal of Multiculturalism” (Beynəlxalq Multikulturalizm Jurnalı) adlı yeni beynəlxalq elmi jurnalının iki sayı nəşr edilib | Aprel- oktyabr | İngilis dili | Mərkəz tərəfindən ildə iki dəfə olmaqla buraxılan elmi jurnal regionda bu istiqamətdə ilk elmi nəşr sayılır. Bütün beynəlxalq standartlara uyğun olaraq hazırlanan elmi nəşrin redaksiya heyəti bu sahədə tanınmış xarici mütəxəssislərdən formalaşıb. |
| 2. | "Azərbaycanca-Tatarca-Rusca-İngiliscə" danışıq kitabçası | Yanvar | Azərbaycan dili, tatar, rus və ingilis dili | Bu nəşr Mərkəz ilə birgə Azərbaycan Milli Elmlər Akademiyasının dəstəyi ilə nəşr edilmişdir. Danışıq kitabçası türk dilləri ilə maraqlananlar, o cümlədən Azərbaycan və tatar dillərində danışmaq istəyənlərə kömək məqsədilə tərtib olunmuşdur. Kitab Azərbaycan-Tatar dostluq əlaqələrinin inkişafına da bir töhfədir. |
| 3. | Azərbaycanda kürd icmasının ağsaqqalı, yazıçı Əhmədе Həponun kürd və Azərbaycan dillərində povest və hekayələrindən ibarət "Xwezila" ("Kaş ki") kitabı nəşr edilib | Yanvar | Kürd dili | Mərkəz tərəfindən hər il ölkəmizdə yaşayan azsaylı xalqların dillərində nəşrlər çap olunur. Bu azsaylı xalqların dillərində ədəbiyyatın artırılması istiqamətində çox mühüm əhəmiyyət daşıyır. Qeyd olunan kitab artıq Mərkəz tərəfindən kürd dilində nəşr olunmuş ikinci kitabdır. |
| 4. | “Qarabağın və Şərqi Zəngəzurun Alban abidələri” kitabı hazırlanaraq çap edilib | Aprel | Azərbaycan dili | Kitabın yazılması Azərbaycan tarixi və onun ən zəngin mərhələlərindən birini təşkil edən alban xristian irsi və bu irsin ən zəngin nümunələrini yaşadan Qarabağ və Şərqi Zəngəzurun alban abidələrinin tarixi keçmişi və bu günkü vəziyyəti, |

| | | | | |
|---|---|---|---|---|
| | | | | onların falsifikasiya edilməsi faktlarının geniş oxucu auditoriyasına çatdırılması, bölgənin bütün alban abidələrinin, ümumi tarixi arayış verilməklə bir nəşrdə toplanması zərurətindən irəli gəlib. Nəşrin növbəti ildə ingilis dilində çap olunmasında planlaşdırılır. |
| **5.** | “Həqiqətin Onomastikası” adlı kitab ingilis dilində nəşr edilib | Noyabr | İngilis dili | Kitab indiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması faktlarına həsr edilib.<br>Prezident İlham Əliyevin 2020-ci il iyun ayının 3-də Tərtər Olimpiya İdman Kompleksinin açılışı zamanı etdiyi çıxışda indiki Ermənistan Respublikası ərazisindəki coğrafi adların mütləq əksəriyyətinin Azərbaycan mənşəli olması, bu mövzunun tədqiqi və təbliğinə dair Azərbaycanın alim və mütəxəssislərinə verdiyi tövsiyəyə əsasən, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) təşkilatçılığı və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Dillər Universitetinin tarixçi alimləri, tarixi toponimlər, dilçilik və xəritəçəkmə üzrə təcrübəli |

| | | | | |
|---|---|---|---|---|
| | | | | mütəxəssislərinin cəlb olunması ilə “Həqiqətin onomastikası” adlı kitabı hazırlanaraq nəşr edilib. Hal-hazırda Azərbaycan və ingilis dilində artıq çap olunmuş kitabın ən qısa zamanda rus-dilində də nəşri planlaşdırılır. |
| **6.** | “Qafqaz Albaniyasının etno-mədəni irsi” elmi jurnalın 3-cü buraxılışı çap olunmuşdur | Dekabr | Azərbaycan, ingilis, rus – dilində | Elmi jurnalda Qafqaz Albaniyasının tarixi, arxeoloji, etnoloji, etnoqrafik, memarlıq, mənbəşünaslıq, epiqrafika, linqvistika və numizmatika sahələrində bir sıra problemli məsələlərin araşdırıldığı məqalələr daxil edilib. Rusiya, Gürcüstan, Cənubi Koreya, Fransa, İtaliya və Azərbaycan alimlərinin araşdırmalarından ibarət topluda ermənilərin Qafqaz Albaniyası irsinin saxtalaşdırması faktlarına da geniş diqqət yetirilib. |

## V bölmə

## BBMM-in fəaliyyətinin KİV-də işıqlanması

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin 2022-ci il ərzində fəaliyyəti, layihələr çərçivəsində həyata keçirdiyi tədbirlər müntəzəm olaraq Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyəti, İctimai Televiziya və Real

TV telekanalı tərəfindən işıqlandırılmışdır. Bundan əlavə ATV, Xəzər, Space, CBC Azərbaycan və Mir-Azərbaycan telekanallarında Mərkəzin həyata keçirdiyi tədbirlərlə bağlı toplam 118 televiziya xəbəri, müsahibə və veriliş hazırlanıb nümayiş olunmuşdur. Eyni zamanda, Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin çox populyar "Əsas məsələ" proqramının 18 verilişində BBMM-in rəhbərliyi və qonaqları, əksər Azərbaycan telekanallarının müxtəlif siyasi proqramlarında isə Mərkəzin əməkdaşları ekspert qismində çıxış etmişdir.

Azərbaycan Dövlət İnformasiya Agentliyi (AzərTac) il ərzində toplam olaraq 143 dəfə BBMM-in ölkə daxilində, xaricdə keçirdiyi konfranslar, görüşlər - bütün tədbirlər haqda məlumatları, yerli və xarici alimlərin, mütəxəssislərin müsahibələrini, təhlillərini davamlı olaraq dərc edərək yaymışdır.

2022-ci il ərzində ölkə ərazisində yayılan "Azərbaycan", "Xalq qəzeti", "Yeni Azərbaycan", "Bakinskiy raboçiy", "İki Sahil", "525-ci qəzet" və "Səs" qəzetlərində, eləcə də onların internet səhifələrində məqalə və məlumat dərc olunmuşdur.

2018-ci ilin oktyabr ayından etibarən yayımlanan və BBMM-in Azərbaycan Televiziyası (AzTV) ilə birgə telelayihəsi olan "Multikulturalizm" davam etmişdir. İl ərzində 8 televiziya verilişi hazırlanaraq efirə verilmişdir. "Multikulturalizm" verlişinin 6 buraxılışı işğaldan azad olunmuş ərazilərimizə həsr olunmuşdur. Ağdam, Şuşa, Xocavənd, Tərtər (Suqovuşan), Hadrut qəsəbəsi, Azıx Mağarası, Zəngilanda Azərbaycan xalqına məxsus mədəni irs geniş işıqlandırılmışdır. Verilişlərdə eyni zamanda BBMM-in fəaliyyəti - görülən işlər, həyata keçirilən layihələrlə yanaşı, bütövlükdə Azərbaycanın multikulturalizm siyasəti öz əksini tapmışdır.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin 2022-ci il ərzində fəaliyyəti barədə bütün informasiya məlumatları Mərkəzin 3 dildə - azərbaycan, rus və ingilis dillərində yayılan http://multikulturalizm.gov.az rəsmi saytında və Mərkəzin facebook səhifəsinində 3 dildə - Azərbaycan https://www.facebook.com/multiculturalismbaku/, rus https://facebook.com/Бакинский-Международный-Центр-Мультикультурализма-279991812586694/ və ingilis https://www.facebook.com/BakuInternationalMulticulturalisCenter/ dillərində Facebook səhifəsində, rəsmi Twitter səhifəsi https://twitter.com/multiculturalaz və rəsmi Youtube https://www.youtube.com/channel/UCRKUAoOiAB1MNlc09-ryk_g səhifəsisində yerləşdirilib.

İl ərzində Azərbaycan multikulturalizmi ilə bağlı ABŞ, Türkiyə, Belçika, Almaniya, Türkmənistan, Pakistan, Rumıniya, İsrail, Ukrayna, İraq, Mərakeş, Küveyt, İordaniya və Misirin xəbər sayt və portallarında müxtəlif dillərdə məqalələr dərc edilmişdir.